# Yusif Günaydının "Qərib axşamlar"ı

## (Açıq məktub. İlk təəssürat)

Hörmətli Yusif müəllim, mən əvvəllər də sizi bir qələm adamı kimi tanıyırdım; amma belə, yaxından görüşlərimiz olmamışdı.

Televiziya binasının vestibülündə görüşdük. Məni verilişlərinizin birinə dəvət etmişdiniz. Səsinizin tembri, diksiyanızın səmimiyyəti, heç kəsi təqlid etmirdi. Arabir də əllərinizin hərəkəti (jestləriniz) danışığınızı və səsinizi müşayiət edirdi.

İstəyirdiniz ki, təkcə səsinizi yox, fikrinizi də eşidim. Qarşımda mütaliəçi bir ziyalı prototipinin dayandığını görürdüm və özümü də daxilən yığışdırırdım, yəni sizə tam diqqətlə qulaq asırdım. Elə buna görə aradabir əvvəlki verilişlərinizi ötəri olsa da, yada salır; onların tədqiqat xarakterli olduğunu özünüzə deyirdim.

Mən bilirdim ki, aparıcının (xüsusilə televiziya aparıcısının) hər verilişi ilk imtahan qədər çətindi. Birinci növbədə isə sizin öz şərəfiniz var, qorumalısınız. Mehriban münasibətlərinizi də saxlamalısınız. Bu, insani keyfiyyətdi, bunsuz olmur. Siz axı, həm də ictimai televiziyanı təmsil edirsiniz. Özünüzə də, işlədiyiniz mühitə də nüfuz gətirməlisiniz. Ucalmalısınız. Tanınmalısınız. Şöhrətlənməlisiniz. Bütün bunlara təbii baxmalıyıq.

Yadınızdadırsa, bir dəfə telefonda dedim, Yusif müəllim, harda adınızı çəkirəmsə, atanızın adını hörmətlə çəkirlər.

Cavab verdiniz ki, Nəriman müəllim, mən də müəllim oğluyam. "Müəllim" sözünü xüsusi vurğuyla işlətdiniz.

Öyrəndim ki, atanız görkəmli dilçi alim olub, türk, ərəb, fars, rus dillərini mükəmməl bilib. Hələ o vaxt məşhur akademik Marrın tələbəsiymiş. Türkçülüyünün üstündə 1936-cı ildə həbs ediblər. Xabarovskda, Özbəkistanda və b. vətəndən uzaq yerlərdə sürgün həyatı keçirib. Yalnız qayıdandan sonra oğlu Yusif dünyaya gəlib, yəni siz, Yusif Günaydın.

Bütün bunlardan sonra İctimai televiziyanın təqdirəlayiq layihəsi olan "Qərib axşamlar" verilişini sizin aparmağınız heç də təsadüfi deyil. Bu, bəlkə də taleyinizlə bağlı bir layihədir ki, məhz sizə tapşırılıb.

Bundan əvvəl televiziya verilişlərinizin ilk qonaqlarından olmuşdum. Uzaq-yaxın ellərdən Azərbaycan dilində çoxlu zəng səsləri gəlirdi. Müstəqillik illərində xarici ölkələrdə nə qədər diaspora yaranmışdır, onlar bizim əks-sədamızdılar. Xarici Azərbaycan diasporu ilə belə canlı əlaqələriniz olduqca xoş təsir bağışlayır. Sanki ərazimiz böyüyür, bütün azərbaycandilli, türkdilli planetlə əlaqə yaranır.

Mənim şair dostum, milliyyətcə Azərbaycanın dağ yəhudisi Simax Şeyda artıq bir neçə ildir ki, ailəsilə birlikdə uzaq ölkələrdə yaşayır. Əvvəlcə İsrailə köçdü, sonralar Almaniyada qərar tutub. Biz yenidən sizin İctimai televiziya kanalında görüşdük. Simax Şeyda məşhur şairdi. Onun Azərbaycanda olduğu kimi, xarici ölkələrdə də kitabları nəşr edilib, şeirlərinə bəstələnən mahnılar Amerikada, Moskvada, İsraildə dağ yəhudilərinin dillərində əzbərdi. Onu həqiqətən sevirlər və qiymətləndirirlər.

Üç il bundan qabaq mən Almaniyaya, Münhen şəhərinə müalicəyə getmişdim. Ürəyimdən əməliyyat aparılmalıydı. Xəstəxanada yatdığım günlərdə bu gözəl insan hər gün mənim yanıma baş çəkirdi. Əməliyyatdan sonra mən oğlumla bərabər dörd gün onun ailəsində qonaq oldum. Xanımı və övladları bizə bir ailənin üzvü kimi diqqət ayırmışdılar. Bunlar heç vaxt unudulmaz. Sizin ekran vasitəsilə biz yenidən danışdıq, bir-birimizin səsimizi eşitdik. Vaxtilə Simax Şeyda Gəncədə böyümüş, sonralar Bakıya köçmüşdü. Biz o zamandan dostuq, qardaşıq.

Sizin verilişlərin tamaşaçısı kimi, "Qərib axşamlar"a gözəl bir şeir də həsr etmişdir.

Baxıram qürbətdən vətənə sarı,
Bu yoldan keçənə, ötənə sarı.
Bağrıma basıram uca dağları,
Çəkməyin Bakıyçın bunca intizar,

Ay "Qərib axşamlar", "Qərib axşamlar".

İstərəm Qarabağ elində olum,
Düşsün Xocalıya, Şuşaya yolum.
O gözəl yerlərə bir də vurulum,
Oxşasın ruhumu bir də kaman, tar,
Ay "Qərib axşamlar", "Qərib axşamlar.

Sizin də fəaliyyət göstərdiyiniz İctimai televiziya verilişlərinin əhəmiyyəti bir də ondadır ki, müstəqilliyimizin indiki inkişaf mərhələsini, azərbaycançılığımızı, türkçülüyümüzü, milli dəyərlərimizi müntəzəm şəkildə, həm də arzuolunan kimi göstərir.

Xaricdə yaşayan həmvətənlərimizi başqa xalqların, mədəniyyətlərin içində əriməyə, manqurtlaşmağa, qəribliyə düşənləri qəribləşməyə qoymur. Onların özlərilə bərabər, uşaqları da sizin dinləyicilərinizdi. Hər həftə muğamatımızı, səsimizi, gözəl dilimizin musiqi səsini, bir növ ana südünün ətrini eşidirlər.

Yeri gəlmişkən, bizim hörmətli qələm dostumuz, ictimai xadim və İctimai televiziyanın rəhbəri İsmayıl Ömərovun adını burada hörmətlə çəkmək istərdim. Bu televiziyanın və radionun ilk təşkil edildiyi günlər mənim yaxşı yadımdadır. Qabiliyyəti olan qələm sahiblərinin, televiziya və radio jurnalistlərinin bu kanal ətrafında həvəslə cəmləşməsi, onlara yaradılan yaradıcılıq mühiti İctimai televiziyanın sürətlə inkişafına səbəb oldu.

Əlbəttə, işdə seçim, istedadı görmək özü əsas şərtlərdəndi.

Onu da deyim ki, İctimai radio təşkil ediləndə ilk çıxış eləyən mən olmuşam. Bu da yadımdadır ki, məndən ilk veriliş zamanı müsahibə alan gənc diktor, Pərvanə adlı qız veriliş qurtarandan sonra studiyadan çıxıb qonşu otaqda hönkür-hönkür ağlayırdı. Səbəbini soruşdum, deyə bilmədi. Yanındakı iş yoldaşları dedilər ki, Nəriman müəllim, biz hamımız ilk radio verilişindən nigaran idik. Pərvanə studiyadan çıxanda hamımız onu təbrik etdik. Dedik ki, çox gözəl alındı. O qız sevincindən ağlayır. Narahat olmayın. Mən də sevindim.

Studiyada, yanımda əyləşib məndən müsahibə alan bu nəvəm yaşında olan istedadlı qız üzünü mənə yox, Allaha tutub yalvarırdı ki, veriliş alınsın. Sən demə, mənim çıxışımla onun ilk diktorluq fəaliyyəti başlayırmış. İndi eşitdiyimə görə, sərbəst veriliş aparır. Bunlar nadir tapıntılardı.

Sizin özünüz də bu gərgin jurnalistlik fəaliyyətinizlə yanaşı, ədəbi yaradıcılıqla məşğul olursunuz. Bu günlərdə "Ədalət" qəzetinin səhifələrində "Tünük buz" başlığı altında çap etdirdiyiniz bir silsilə "Mozaika"larınızı oxudum. Mənim qırx illik qələm dostum, fədakar şairimiz Xəlil Rza Ulutürkün xatirəsinə həsr etdiyiniz "Xar tut" adlı esse poetik və həm də düşündürücüdür. Oxuduqca bu böyük şairlə bağlı xatirələr yada düşürdü. "Karibara", "Dilək adası", "Ana və bala", "K", "Tünük buz" kimi fəlsəfi tutumlu hekayələriniz həyatın müxtəlif məqamlarını özündə ehtiva edən qiymətli ədəbi lövhələrdi. Hadisələri lakonik şəkildə qələmə almaqla kiçik detalların vasitəsilə böyük mətləblərə toxunmaq istəyirsiniz.

Sizə, əziz qələm dostum, İctimai televiziyada "Qərib axşamlar"da Azərbaycanı təqdim etmək kimi şərəfli bir vəzifə tapşırılıb. Bu, altmış illik yubileyinizə də taleyin töhfəsidir, Yusif.

Yeni uğurlar!

**Nəriman Həsənzadə,**
**xalq şairi**

**Şərq.- 2011.- 20 yanvar.- S.7.**